# Mirzə Səməd

El şairi Mirzə Səməd gənc yaşlarında varlı ailədən olan Cəvahir adlı bir qızı sevir və onun şəninə gözəl şeirlər yazır.

Cəvahir sarıbəniz, mavi gözlü, göyçək qız imiş. Onun uzun, sarı hörükləri varmış. Ona görə də şair öz sevgilisinə "Sarıtel" deyə müraciət edərmiş.

Mirzə Səməd və Cəvahir xanım bir-birlərini sevir, əhd-peyman bağlayırlar. Hər ikisi evlənmək yaşına dolarkən Mirzə Səmədin atası Cəvahirin ailəsinə elçi göndərir və qız evi elçilərə rədd cavabı verir. Atası Cəvahiri varlı bir adama ərə verir.

Mirzə Səməd sonralar evlənib ev-eşik, ailə sahibi olsa da, Sarıteli unutmur, onun eşqinə şeirlər qoşur, nəğmələr yaradır.

Nəticədə "Mirzə Səməd və Sarıtel dastanı" yaranır.

## Sarıtel

***Məcnunam, gəzirəm Leyli yolunu,***
***Səhər çıxar buralara, Sarıtel!***
***Təbibimsən, məlhəm eylə yarama,***
***Bir əl vursan yaralara, Sarıtel!***

***Bal kəsilsə, şanda arı görməyə,***
***Bülbül istər güldə xarı görməyə,***
***Üzü dönmüş xoryat yarı görməyə,***
***Batmayasan qaralara, Sarıtel!***

***Dərya cuşa gəlsə, ada dayanmaz,***
***Kim versə cananın yada, dayanmaz,***
***Yanar cismin, Mirzə, oda dayanmaz,***
***İlqar qoyaq aralara, Sarıtel!***